# Horadizdə general-mayor Həzi Aslanovun anadan olmasının 110 illiyi qeyd edilib



*Yanvarın 22-də Horadiz şəhərində iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun anadan olmasının 110 illiyi qeyd edilib. Dövlət Dram Teatrında keçirilən tədbirdə "N" hərbi hissəsinin əsgər və zabitləri iştirak ediblər.*

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, polkovnik Elşad Əbilov çıxış edərək, İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin qazanılmasında Azərbaycan xalqının xidmətlərindən, azərbaycanlıların cəbhədə göstərdiyi misilsiz rəşadətdən danışıb. Bildirib ki, xalqımızın igid oğulları sırasında general Həzi Aslanovun qəhrəmanlığın rəmzinə çevrilmiş adı dərin ehtiramla çəkilir. Dünyanın faşizmdən xilas olması uğrunda ağır döyüşlərdə Həzi Aslanov mahir sərkərdə istedadı nümayiş etdirib və hərb salnaməsində yeni parlaq səhifələr açıb. Onun göstərdiyi misilsiz şücaət və başçılıq etdiyi tank alayının müstəsna rəşadəti torpaqlarımızın işğaldan azad edilməsinə hər an hazır olan Azərbaycan Ordusunun bütün şəxsi heyəti üçün əsl qəhrəmanlıq nümunəsidir.

Natiq Azərbaycan xalqının qəhrəman oğlu Həzi Aslanovun hərb tarixində müstəsna xidmətlərindən, keçdiyi döyüş yolundan ətraflı bəhs edib. Bildirib ki, Həzi Əhəd oğlu Aslanov 1910-cu il yanvarın 22-də Lənkəran rayonunun Gərmətük qəsəbəsində doğulub. 1924-1930-cu illərdə Bakı və Leninqrad hərbi məktəblərində oxuyub. 1929-cu ildə Leninqrad süvari məktəbinə daxil olub. İkiillik təhsildən sonra Kotovski adına III Bessarabiya süvari diviziyasında taqım komandiri vəzifəsinə təyin edilib.

Həzi Aslanov İkinci Dünya müharibəsində Volqadan başlamış Baltikədək bütün döyüşlərdə özünü bacarıqlı zabit kimi göstərib. Döyüşlərdəki şücaətinə görə 1942-ci il dekabrın 22-də Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. İki dəfə "Qırmızı ulduz", üç dəfə "Qırmızı bayraq", "Aleksandr Nevski", 2-ci dərəcəli "Suvorov", 1-ci dərəcəli "Vətən müharibəsi" ordenləri və saysız medallarla təltif olunub.

1945-ci il yanvarın 24-də Həzi Aslanov zabitlərin müşayiəti ilə cəbhə xəttini yoxlayan zaman mina partlamasından yaralanıb və çoxlu qan itirərək həyatla vidalaşıb. Ölümündən 47 il sonra - 1991-ci ildə Həzi Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı verilib. O, bu ada iki dəfə layiq görülən yeganə azərbaycanlıdır.

Füzuli Dövlət Dram Teatrının direktoru Vaqif Vəliyev çıxışında Azərbaycan xalqının cəsur övladı Həzi Aslanovun anadan olmasının 110-cu ildönümü münasibətilə keçirilən tədbirlərin gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyəsində əhəmiyyətini yüksək qiymətləndirib. Füzuli Dövlət Dram Teatrının Həzi Aslanovun anadan olmasının 110 illiyi ilə əlaqədar "Qafqaz dağlarından boylanan günəş" adlı poetik xalq tamaşası hazırladığını bildirib.



Sonra tədbir iştirakçıları "Qafqaz dağlarından boylanan günəş" adlı poetik xalq tamaşasına baxıblar. Əməkdar artist Asif Şirinovun quruluşu əsasında hazırlanan tamaşanın quruluşçu rəssamı Ellinaz Balaşova, musiqi tərtibatçısı Sənan Sevindikzadədir. Tamaşada əsas rollarda Qaçaq Qarayev, İntizar Quliyeva, Xurşud Babayeva və başqaları çıxış ediblər.

Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun keçdiyi şərəfli ömür və döyüş yolundan bəhs edən tamaşa əsgər və zabitlər tərəfindən böyük maraqla qarşılanıb.